# Səhrada




İSRAİLLİLƏR ZİN SƏHRASINA GƏLDİLƏR VƏ QADEŞDƏ DAYANDILAR. MƏRYƏM ORADACA ÖLDÜ. HƏMÇİNİN, BURADA ADAMLAR YENƏ ÜSYAN ETDİLƏR.
RƏBBİN CAMAATINI BU SƏHRAYA NƏ ÜÇÜN GƏTİRDİNİZ? BİZİM VƏ HEYVANLARIMIZIN BURADA ÖLMƏSİ ÜÇÜNMÜ?
NƏ ÜÇÜN BİZİ MİSİRDƏN ÇIXARIB BELƏ PİS YERƏ GƏTİRDİNİZ?
KAŞ Kİ BİZ DƏ SOYDAŞLARIMIZ-LA BİRGƏ RƏBBİN ÖNÜNDƏ ÖLƏYDİK!
BURA NƏ ƏKİN, NƏ ƏNCİR, NƏ BAĞ, NƏ DƏ NAR YERİDİR.
İÇMƏYƏ BELƏ, SU YOXDUR.
ƏSANI GÖTÜR, SƏN VƏ QARDAŞIN HARUN İCMANI TOPLAYIN.
ONLARIN GÖZÜ ÖNÜNDƏ QAYAYA SU VERSİN DEYƏ SÖYLƏYİN.
QAYADAN ONLARA SU ÇIXART, İCMAYA VƏ HEYVANLARI-NA İÇİRT.


EY DÖNÜK OLANLAR, İNDİ DİNLƏYİN; BU QAYADAN SİZƏ SU ÇIXARAQMI?
DUMP
LAKİN MUSA İLƏ HARUNUN HƏRƏKƏTİ ALLAHA MƏQBUL DEYİLDİ. O DEDİ:
MADAM Kİ İSRAİL ÖVLADLARININ GÖZÜ ÖNÜNDƏ MƏNİM MÜQƏDDƏSLİYİMİ GÖSTƏRƏRƏK MƏNƏ İMAN ETMƏDİNİZ, BU CAMAATI ONLARA VERDİYİM ÖLKƏYƏ APARMAYACAQSINIZ.
BU SULARA MERİVA ("ÜSYAN") SULARI DEYİLİR, ÇÜNKİ BU YERDƏ İSRAİL ÖVLADLARI RƏBB İLƏ MÜBAHİSƏ ETDİLƏR VƏ RƏBB ONLARA ÖZ MÜQƏDDƏSLİYİNİ GÖSTƏRDİ.




SAYLAR 20:14-29


TEZLİKLƏ DÜŞƏRGƏ ZƏHƏRLİ İLANLARLA DOLDU.
ALLAH, BİZƏ KÖMƏK ET!
İLANLAR ADAMLARI HƏTTA ÖZ ÇADIRLARINDA GECƏ DƏ SANCIRDI.
FIŞŞŞŞ
KÖMƏK EDİN, MƏNİ İLAN SANCIB.
YOOOX!
HƏTTA UŞAQLAR VALİDEYNLƏRİN GÜNAHLARINA GÖRƏ ƏZAB ÇƏKDİLƏR.
YOX, YOAV!
ANA!


DÜŞƏRGƏNİN HƏR YERİNDƏN ƏZAB FƏRYADLARI EŞİDİLİRDİ. GÜNAHIN CƏZASI DƏHŞƏTLİDİR.
İLANLAR DÜŞƏRGƏNİN HƏR YERİNDƏNDİR, ADAMLARIN ÇOXU ARTIQ ÖLÜB.
MUSANI TAPMAQ LAZIMDIR. BU ALLAHIN İŞİDİR. O, ADAMLARIN GÜNAHLARINA GÖRƏ QƏZƏBLİDİR.
ŞAQQ!
BİZ GÜNAH ETDİK. İNDİ İSƏ İLANLARI BİZDƏN UZAQLAŞDIRMAQ ÜÇÜN RƏBBƏ MƏRHƏMƏT ÜÇÜN YALVAR».
ADAMLAR GÜNAHIN CİDDİ OLDUĞUNU ÖYRƏNƏCƏKLƏRMİ? ONLAR RƏBBİN ƏMRLƏRİNƏ İTAƏT ETMƏYİ ÖYRƏNMƏLİDİRLƏR VƏ MÜQƏDDƏS XALQ OLMALIDIRLAR.
EY ALLAH, XALQINA QARŞI MƏRHƏMƏT ET. ONLARIN GÜNAHLARINI BAĞIŞLA.
ÖZÜNƏ BİR İLAN DÜZƏLT VƏ ONU UZUN DƏYƏNƏYİN ÜZƏRİNƏ QOY. İLAN VURAN ADAM ONA BAXDIQDA SAĞALSIN.

SAYLAR 21:7-8


ALLAH ÇIXIŞ YOLUNU VERDİ. SADƏCƏ TUNC İLANA BAXSANIZ SAĞ QALACAQ-SINIZ.
O ÖLƏCƏK.
XEYR! ALLAH ŞƏFA YOLUNU TƏMİN ETDİ. GÖZ-LƏRİNİ AÇ VƏ BAX. BAX VƏ YAŞA.
BU, MÖ-CÜZƏDİR!
BUNU BAŞQALARI-NA DEMƏLİ-YİK.
BU, MƏNƏ KÖMƏK ETDİ!
BU BARƏDƏ BAŞQALARI-NA DEMƏ-LİYƏM.
BAX VƏ YAŞA!



SAYLAR 21:9



NİYƏ ONLARA BOŞ ÜMİD VERİRSƏN?
BAŞQALARI BAXIB ŞƏFA TAPDI.
GÖRMÜRSƏN ÖLÜRƏM? İNDİ BOŞBOĞAZLI-ĞIN YERİDİR?
O ÖLDÜ.
HEYF, İNANMADI.
ÇOX QÜRURLU İDİ.
YENƏ DƏ, ADAMLAR ALLAHIN QÜDRƏTİNİ GÖRDÜLƏR. DÜŞƏR-GƏ İLANLARDAN UZAQLAŞDI VƏ HƏYAT ADI YOLUNA DÜŞDÜ.
LAKİN ADAMLAR ÖZ YOLLARI İLƏ GETMƏKDƏ DAVAM EDİRDİLƏR. ÇOX VAXT ONLAR ALLA-HIN ƏMRLƏRİNƏ TABE OLMURDULAR.
İSRAİL ÖVLADLARI BULUDLU SÜTUNUN ARDINCA GEDİRDİLƏR. ALLAH ONLARA GÖYDƏN MANNA, QAYADAN İSƏ SU VERİRDİ.
RƏBB ONLARI VƏD OLUNMUŞ TORPAĞA APARA BİLƏRDİ, LAKİN ONLAR İTAƏTSİZ İDİLƏR VƏ ONUN ƏMRLƏRİNƏ TABE OLMURDULAR. BELƏLİKLƏ, ALLAH ONLARI QIRX İL SƏHRADA GƏZDİRDİ.



İSRAİL ÖVLADLARI YOLA DÜŞÜB MOAV DÜZƏNLİYİNDƏ, İORDANIN ŞƏRQİNDƏ YERİXONUN QARŞISINDA DAYANDILAR.
İSRAİLİN EMORLULARIN BAŞINA GƏTİRDİYİ HƏR ŞEYİ GÖRƏN MOABIN PADŞAHI BALAQ MİDYAN AĞSAQQALLARI İLƏ MƏSLƏHƏTLƏŞDİ.
ÖKÜZ ÇÖL OTUNU YEDİYİ KİMİ BU CAMAAT BİZİ YEYƏCƏK.
BU XƏBƏRİ FALA BAXAN BİLAMA ÇATDIRIN.
MİSİRDƏN BÖYÜK İZDİHAM GƏLDİ.
GƏL, BU XALQA LƏNƏT OXU, ONU ÖLKƏDƏN QOVA BİLİM. SƏNİN XEYİR-DUA VERDİYİN ŞƏXS XEYİR-DUALI, LƏNƏTLƏDİYİN ŞƏXS LƏNƏTLİ OLUR.
BU GECƏNİ BURADA KEÇİRİN Kİ, RƏBB MƏNƏ SÖYLƏYƏCƏYİNİ SİZƏ DEYİM.
BU ADAMLAR KİMDİR?
MOAVIN PADŞAHI BALAQDIR. BU ADAMLAR ONUN SƏRHƏDİNƏ YAXINLAŞIB. ONLARI LƏNƏTLƏMƏYİMİ İSTƏYİR.
O XALQA LƏNƏT ETMƏ, ÇÜNKİ XEYİR-DUALI XALQDIR.




SAYLAR 22:13-20


BİLAM SƏHƏR TEZDƏN QALXARAQ EŞŞƏYİNƏ MİNİB ONLARLA BİRGƏ GETDİ.
ANCAQ ALLAH BİLAMIN NİYYƏTİNİN DÜZGÜN OLMADIĞINI BİLİB QƏZƏBLƏNDİ.
ALLAH SIYRILMIŞ QILINCI ƏLİNDƏ OLAN BİR MƏLƏYİNİ GÖNDƏRDİ.
AY HEYVAN, YOLA QAYIT!
EŞŞƏK RƏBBİN MƏLƏYİNİ GÖRÜB DİVARA SIXILDI VƏ BİLAMIN AYAĞINI DİVARA SIXIŞDIRDI.
AY HEYVAN, SƏNƏ NƏ OLUB!
HOŞŞA...
RƏBBİN MƏLƏYİ DAR BİR YERDƏ DURDU. ONDA EŞŞƏK BİLAMIN ALTINDA ÇÖKDÜ.
SƏNİ NƏ QƏDƏR DÖYSƏM AZ OLAR, HEYVAN!




SAYLAR 22:28-38


NƏ ÜÇÜN BU QƏDƏR LƏNGİDİN? SƏNƏ LAZIMİ HÖRMƏTİ EDƏCƏYƏM.
MƏN BURADA YALNIZ ALLAHIN DEDİYİNİ EDƏCƏYƏM.
BURADA MƏNƏ YEDDİ QURBANGAH DÜZƏLT.
BAMOT-BAAL DAĞINDA BALAQ İSRAİL XALQININ BİR HISSƏSİNİ GÖRDÜ, ÇOXLU BUĞA VƏ QOÇU QURBAN TƏQDİM ETDİ.
İNDİ İSƏ DÜŞMƏNLƏRİMİ MƏNİM ÜÇÜN LƏNƏTLƏ.
ALLAH LƏNƏT ETMİRSƏ MƏN NECƏ LƏNƏT EDƏ BİLƏRƏM?
ONLAR SAYSIZ QƏDƏR ÇOXDURLAR.
ONLAR NECƏ OLUBSA, SONUM ELƏ OLSUN!
SƏN NƏ ETDİN? SƏN DÜŞMƏNLƏRİMƏ XEYİR-DUA VERDİN!
MƏNİMLƏ BAŞQA BİR YERƏ GƏL, ORADAN ONLARIN HAMISINI YOX, BİR QİSMİNİ GÖRƏCƏKSƏN. HEÇ OLMASA, BİR HİSSƏSİNƏ LƏNƏT OXU.




SAYLAR 23:14-27


PEOR TƏPƏSİNDƏ ONLAR DAHA YEDDİ QURBANGAH DÜZƏLTDİLƏR.
BİLAM RƏBBİN GÖZÜNDƏ İSRAİLƏ XEYİR-DUA VERMƏYİN YAXŞI OLDUĞUNU GÖRDÜKDƏ ƏVVƏLKİ KİMİ BAXICILIQ ETMƏDİ.
ALLAH MƏNƏ GÖSTƏRDİ, GÖZLƏRİMİ AÇDI.
ONLAR BOL SU İLƏ XEYİR-DUALI OLACAQLAR, BİR ÇOX YERLƏRDƏ YAŞAYACAQLAR.
PADŞAHLARI AQAQDAN BÖYÜK OLACAQ, PADŞAHLIQLARI UCALACAQ.
ALLAH ONLARI MİSİRDƏN ÇIXARTDI.
ONLARIN ÇÖL ÖKÜZÜ KİMİ QÜVVƏTİ VAR. ONLAR DÜŞMƏN MİLLƏTLƏRİ YEYİB QURTA-RACAQ.
??!!
ONLAR PUSUB ŞİR KİMİ YATAR, DİŞİ ASLANA OXŞAR. ONLARI OYANDIRMA-ĞA KİM CÜRƏT EDƏR?
SİZƏ XEYİR-DUA VERƏN XEYİR-DUALI OLSUN, SİZƏ LƏNƏT OXUYAN QOY LƏNƏTLİ OLSUN!




SAYLAR 24:10-25


İSRAİL XALQI ŞİTTİMDƏ YAŞAYARKƏN KİŞİLƏRİ MOAV QIZLARI İLƏ ZİNA ETMƏYƏ BAŞLADI.
CİNSİ ƏXLAQSIZLIQ BÜTPƏRƏST İBADƏTİNİN BİR HISSƏSİ İDİ.
RƏBBİN QƏZƏBİ İSRAİLƏ QARŞI ALOVLANDI VƏ O, MUSAYA BELƏ ƏMR ETDİ:
XALQIN BÜTÜN BAŞÇILARINI DAR AĞACINDAN ASDIR.
ONLARI GÜNDÜZ EDAM ET Kİ, RƏBBİN QIZĞIN QƏZƏBİ İSRAİLDƏN DÖNSÜN.
BUNA GÖRƏ MUSANIN VƏ İSRAİLİN HAKİMLƏRİNİN ƏMRİ İLƏ BÜTPƏRƏSTLİK VƏ ƏXLAQSIZLIQ EDƏNLƏR ÖLDÜRÜLDÜ.



SAYLAR 25:1-5



BÜTPƏRƏSTLİYƏ GÖRƏ BİZİ TEZ BAĞIŞLA!
HÜZUR ÇADIRININ ÖNÜNDƏ MUSANIN VƏ BÜTÜN İSRAİLİN AĞLAŞAN BÜTÜN İCMASININ GÖZÜ ÖNÜNDƏ BİR NƏFƏR HƏYASIZLIQ ETDİ.
BU AN İSRAİL ÖVLADLARINDAN OLAN BİR NƏFƏR GƏLDİ,
O, ÖZ ÇADIRINA MİDYANLI BİR QADIN GƏTİRDİ.
HARUNUN NƏVƏSİ PİNXAS ƏLİNƏ BİR NİZƏ GÖTÜRDÜ VƏ ONUN ARDINCA ÇADIRIN İÇİNƏ GİRDİ.
NİZƏNİ KİŞİNİN VƏ QADININ QARNINA SOXDU.
İSRAİL ÖVLADLARINI QIRAN VƏBA DAYANDI. VƏBADAN ÖLƏNLƏRİN SAYI 24 000 NƏFƏR İDİ.


SAYLAR 25:6-9


KAHİN HARUNUN NƏVƏSİ PİNXAS MƏNİM QƏZƏBİMİ İSRAİL ÖVLADLARINDAN DÖNDƏRDİ, ÇÜNKİ ARALARINDA YALNIZ O, MƏNİM QEYRƏTİMİ ÇƏKDİ.
BELƏLİKLƏ, MƏN QEYRƏTİMƏ GÖRƏ İSRAİL ÖVLADLARINI MƏHV ETMƏDİM.
BUNA GÖRƏ DƏ ONUNLA SÜLH ƏHDİNİ BAĞLAYACAĞAM.
BUDUR, MƏN ONUNLA SÜLH ƏHDİ BAĞLAYIRAM. BU, ONUN ÜÇÜN VƏ ONDAN SONRA GƏLƏN NƏSLİ ÜÇÜN ƏBƏDİ KAHİNLİK ƏHDİ OLACAQ, ÇÜNKİ ALLAHININ QEYRƏTİNİ ÇƏKİB İSRAİL ÖVLADLARI ÜÇÜN KƏFFARƏ ETDİ.
SONRA RƏBB MUSAYA BÜTÜN İSRAİL ÖVLADLARININ İCMASINI, AİLƏLƏRİNƏ GÖRƏ İYİRMİ VƏ ONDAN YUXARI YAŞDA DÖYÜŞƏ QABİL OLAN İSRAİL ÖVLADLARINI SAYMAĞI TAPŞIRDI.
SAYILAN İSRAİL ÖVLADLARININ CƏMİ 601 730 NƏFƏRİ KİŞİ İDİ. LEVİLİLƏRİN SAYI İSƏ 23 000 NƏFƏR İDİ.
ALLAH MUSAYA VƏD OLUNMUŞ TORPAĞI HƏR QƏBİLƏDƏKİ ADAMLARIN SAYINA GÖRƏ BÖLMƏYİ TAPŞIRDI.


MUSANIN GÖSTƏRİŞİ İLƏ KAHİNLƏR HÜZUR ÇADIRINDA HƏR GÜN QURBANLAR TƏQDİM EDİRDİLƏR.
SƏHRADA QIRX İLDƏN SONRA HAMI VƏD OLUNMUŞ TORPAĞA DAXİL OLMAĞA HAZIRLAŞIRDI. ALLAH MUSANI DAĞA ÇAĞIRDI. ALLAH İLƏ SONUNCU DƏFƏ DANIŞANDAN SONRA MUSA UZANIB SAKİTCƏ ÖLDÜ.
DƏRHAL ONUN RUHU ALLAHIN HÜZURUNA DAXİL OLDU. ORADA O, ZAMANIN SONUNA QƏDƏR QALMALI İDİ.


ALLAH İBRAHİMİ VƏD OLUNMUŞ TORPAĞA ÇAĞIRDIĞI VAXTDAN TƏXMİNƏN 500 İL KEÇMİŞDİ.
ALLAH İBRAHİMƏ VƏ SARAYA ONLARDAN BÖYÜK XALQ TÖRƏDƏCƏYİ HAQDA ÖZ VƏDİNİ YERİNƏ YETİRDİ.
YAQUBUN ADI DƏYİŞİB İSRAİL OLDU. ONUN ON İKİ OĞLUNUN NƏSLİ ON İKİ QƏBİLƏ OLDU VƏ XEYLİ ÇOXALDI.
ONLAR QUL ƏSARƏTİNDƏN KEÇDİLƏR, SƏHRADA MUSA İLƏ GƏZDİLƏR, ALLAHDAN QANUN QƏBUL ETDİLƏR, İNDİ İSƏ, NƏHAYƏT Kİ, VƏD OLUNMUŞ TORPAĞA DAXİL OLURDULAR.
SƏHRADAKI BÜTÜN SƏYAHƏT BOYU MUSANIN YANINDA BİR GƏNC DAYANIB İSRAİL XALQINA RƏHBƏRLİK ETMƏYİ ÖYRƏNİRDİ.
HƏMİN GƏNC BÖYÜYÜB MƏHARƏTLİ DÖYÜŞÇÜ OLDU. BU, YEŞUA İDİ.







QANUNUN TƏKRARI 34:9; YEŞUA 5:12